www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-11 (1772) 14 iyun 2023-cü il



## Türkiyə-Azərbaycan qardaşlığı bütün dünyada qibtə ilə izlənilir

**Rəcəb Tayyib Ərdoğan yenidən prezident seçildikdən sonra Bakıya dövlət səfərinə gəlib**

səh. 2

### Ulu Öndərə sonsuz sevginin daha bir nümunəsi

səh. 3

### Şəhid və qazi övladları üçün ödənişsiz tibbi aksiya keçirilib

səh. 4

### Əməkdaşımız Aristotel Universitetində mühazirə oxuyub

səh. 4



### ATU-nun nümayəndə heyəti Almaniyaya səfər edib

Rektor, professor Gəray Gəraybəyli tanınmış klinikanın direktoruna "Qonaq professor" diplomunu təqdim edib

səh. 2

### Qarabağın dərman bitkiləri yaralarımıza məlhəm olacaq

*Professor Musa Qəniyev deyir ki, bölgədəki 800-dən artıq nadir bitki növünün 250-dən çoxu yox olmaq üzrədir*

səh. 6

### Məhkəmə təbabəti həm tibbə, həm də qanunlara xidmət edir

*Professor Mənsur Bünyatov: Məhkəmə-tibb ekspertləri kimi, istintaq prosesində bizdən çox şey asılıdır*

səh. 7



### ATU-da imtahan prosesi davam edir

Universitetin rəhbər şəxsləri Dövlət Attestasiyası imtahanlarının gedişini izləyiblər

səh. 3

# Türkiyə-Azərbaycan qardaşlığı bütün dünyada qibtə ilə izlənilir



**İyunun 12-də Bakıda, “Gülüstan” sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın adından Azərbaycan Prezidentinin dəvəti ilə ölkəmizdə dövlət səfərində olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Birinci xanım Əminə Ərdoğanın şərəfinə dövlət ziyafəti verilib.**

## Rəcəb Tayyib Ərdoğan yenidən prezident seçildikdən sonra Bakıya dövlət səfərinə gəlib

İyunun 13-də Türkiyə Prezidentinin rəsmi qarşılanma mərasimi, daha sonra isə iki ölkə prezidentlərinin təkbətək görüşü olub.

Təkbətək görüşdən sonra Prezident İlham Əliyevin Prezident Rəcəb Tayyib Ərdoğan ilə geniş tərkibdə görüşü keçirilib.

**Türkiyə Prezidenti Rəcəp Tayyib Ərdoğanı salamlayan Azərbaycan Prezidenti İlham Əliyev dedi:**

“Sizin dövlət səfəriniz bizi çox məmnun edirsiniz. Şadam ki, prezident seçkilərindən qısa müddət sonra Azərbaycana səfər edirsiniz. Bir daha Sizi qələbə münasibətilə təbrik etmək istəyirəm. Sizə yeni uğurlar arzulayıram. Əminəm ki, növbəti illərdə də bizim dostluğumuz, qardaşlığımız hər zaman olduğu kimi, yüksək səviyyədə olacaqdır.

Türkiyə-Azərbaycan birliyi, qardaşlığı - bu, beynəlxalq amildir, sabitlik, inkişaf və təhlükəsizlik amilidir. Prezident seçkilərində türk xalqının Sizə göstərdiyi inam bir daha Sizin uzun illər ərzində Türkiyə xalqına göstərdiyiniz xidmətlərə verilən yüksək qiymətdir. Bilirsiniz ki, Sizi Azərbaycanda, çox sevirlər. Siz bizim əziz qonağımızsınız.

Mən yeni hökumət üzvlərini də ürəkdən təbrik etmək istəyirəm. Bir çoxlarını tanıyıram. Dünən artıq bizim nazirlər və digər yüksəksəviyyəli rəsmilər bir arada olmuşlar, bu gün də bu təmaslar davam edir. Hər zaman olduğu kimi, bizim görüşlərimiz həm görülən işlərə yekun vurur, eyni zamanda, növbəti illərdə görüləcək işlərlə bağlı yol xəritəsi cızır. Əminəm ki, bu səfərdə də belə olacaq. Bir daha xoş gəlmisiniz”.

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dedi:**

“Hörmətli cənab Prezident, əziz Qardaşım.

Hörmətli heyət üzvləri.

Sizləri öz adımdan, heyətim adından ən səmimi hisslərimlə salamlayıram. Millətimizin iradəsi ilə yenidən prezident seçildikdən sonra hər zamankı adətimiz üzrə əvvəlcə Şimali Kipri ziyarət etdik, sonra da dərhal Bakıya gələrək Sizinlə bir arada olduq. Göstərdiyiniz qonaqpərvərliyə görə şəxsən öz adımdan və heyətim adından səmimi təşəkkürlərimi xüsusilə ifadə edirəm.

Türkiyə-Azərbaycan qardaşlığı bütün dünyada qibtə ilə izlənilir. Bunun son örnəyini Türkiyədə baş verən zəlzələ fəlakəti zamanı gördük. Azərbaycan hökuməti və xalqı dərdimizi öz dərdi kimi bölüşdü və dərhal zəlzələ bölgəsinə heyət göndərdilər. Ürəyi bizimlə döyünən hər bir Azərbaycan vətəndaşına yenə şəxsən öz adımdan və millətim adından minnətdaram.

Şuşa Bəyannaməsi ilə müttəfiqlik səviyyəsinə yüksəltdiyimiz əlaqələrimizi bütün sahələrdə inkişaf etdirməkdə qərarlıyıq. Şuşadakı baş konsulluğumuzu istədiyiniz vaxt açmağa hazırıq. Bu təbii ki, yenə başda Ermənistan olmaqla bütün dünyaya ayrı bir mesaj olacaqdır.

Əziz qardaşımla təkbətək görüşümüzdə xüsusilə Xəzərdən keçən Orta Dəhliz və bu xüsusda Bakı-Tbilisi-Qars dəmiryolu xəttini də bir an əvvəl müzakirə etməyimizdə fayda var”.

İyunun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış ediblər.

# ATU-nun nümayəndə heyəti Almaniyaya səfər edib

## Rektor, professor Gəray Gəraybəyli tanınmış klinikanın direktoruna “Qonaq professor” diplomunu təqdim edib



**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəylinin başçılıq etdiyi nümayəndə heyəti iyunun 3-7-də Almaniyanın Heidelberg Universitetinin Mannheim Tibb fakültəsinin Cərrahiyyə Klinikasının direktoru, professor Christoph Reissfelderin dəvəti ilə bu ölkədə səfərdə olub.**



Səfərin ilk günü professor Gəray Gəraybəyli Cərrahiyyə Klinikasının kollektivi qarşısında çıxış edərək, Azərbaycan Tibb Universitetinin tarixi, beynəlxalq akkreditasiyadan keçmiş tədris proqramları, aparılan islahatlar, yeni açılmış ixtisaslar və beynəlxalq əlaqələrimiz haqda geniş məlumat verib. Həmçinin 2020-ci ildə ATU ilə Heidelberg Universitetinin Mannheim Tibb fakültəsinin Cərrahiyyə Klinikası arasında imzalanmış əməkdaşlıq haqqında anlaşma memorandumu çərçivəsində görülmüş işlər və gələcək əməkdaşlıq perspektivləri haqda fikirlərini bölüşüb. Qeyd olunub ki, 2020-2023-cü illəri əhatə edən memorandumun icrası ilə bağlı kifayət qədər səmərəli fəaliyyət həyata keçirilib. Alman Akademik Mübadilə Xidməti tərəfindən dəstəklənən memorandumun əsas məqsədi cərrahiyyə profili üzrə baza ali tibb təhsilindən sonrakı tibb təhsili (rezidentura), elmi-tədqiqat və xəstələrin idarə edilməsi sahələrində əməkdaşlığın qurulması və təşviq edilməsindən ibarətdir.

Tədbirdə çıxış edən professor Christoph Reissfelder də öz növbəsində, Azərbaycan Tibb Universiteti ilə əməkdaşlıqdan məmnun olduğunu, bu səfərin qarşılıqlı əlaqələrin genişləndirilməsi və təcrübə mübadiləsi baxımından çox əhəmiyyətli olduğunu bildirib. Bu cür səfərlərin iki ölkənin elmi-tədris müəssisələri arasında əlaqələrin möhkəmlənməsinə səbəb olduğunu qeyd edib.

Sonra professor C.Reissfelderə Azərbaycan Tibb Universitetinin “Qonaq professor”u diplomu təqdim edilib. Bu o deməkdir ki, professor müəyyən dövrlərdə Bakıya dəvət olunacaq, ATU-nun tələbələrinə dərs deyəcək.

Qeyd edək ki, professor C.Reissfelder ATU Böyük Elmi Şurasının 29 noyabr 2022-ci il tarixli iclasının qərarı ilə “Qonaq professor” adına layiq görülüb.

# Almaniyada çalışan azərbaycanlı həkimlərlə görüş keçirilib

**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəylinin başçılıq etdiyi nümayəndə heyəti Almaniyaya səfəri zamanı universitetimizin bu ölkədə fəaliyyət göstərən bəzi məzunları ilə görüşüb.**

Görüşdə azərbaycanlı həkimlərin Almaniyanın müxtəlif klinikalarında fəaliyyəti, Azərbaycan və Almaniya tibb təhsili arasındakı fərqlilik və oxşarlıqlar, iki ölkənin tibb təhsili sahəsində əməkdaşlıq istiqamətləri üzrə təkliflər və s. məsələlər müzakirə edilib. Rektor azərbaycanlı həkimləri Azərbaycan Tibb Universiteti ilə yaxından əməkdaşlıq etməyə çağırıb. Həmçinin qeyd olunub ki, ATU azərbaycanlı həkimlərə hər cür dəstək verməyə hazırdır. Təsadüfi deyil ki, Almaniyada fəaliyyət göstərən azərbaycanlı həkimlər tərəfindən yaradılmış bir neçə ictimai birliklə sıx əməkdaşlıq edilir.

Görüşün sonunda xatirə şəkli çəkdirilib.



# Azərbaycanlı doktorantın elmi fəaliyyəti müzakirə edilib

**Almaniya səfəri zamanı Azərbaycan Tibb Universitetinin nümayəndə heyəti Mannheim Tibb fakültəsinin Cərrahiyyə elmi-tədqiqat laboratoriyasını da ziyarət edib. Laboratoriyada çalışan azərbaycanlı doktorant Səbinə Hacızadənin apardığı elmi-tədqiqatlarla yaxından tanış olan rektor Gəray Gəraybəyli gənc alimə öz tövsiyələrini də verib.**



Qeyd edək ki, Səbinə Hacızadə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində xarici ölkələrin ali təhsil müəssisələrində doktorantura səviyyəsi üzrə təhsil almaq üçün müraciət edib. Azərbaycan Tibb Universitetindən “Razılıq məktubu” əldə edən S. Hacızadə hazırda bu laboratoriyada elmi araşdırmalarını davam etdirməkdədir.

ATU-nun rektoru, professor Gəray Gəraybəyliyə elmi-tədqiqat laboratoriyasında həyata keçirilən elmi işlər, bu mərkəzin texniki təchizatı, Heidelberg Universitetində doktorantura proqramına qəbul prosesi ilə bağlı ətraflı məlumat verilib. Rektor G. Gəraybəyli ATU-da çalışan alimlərin elmi tədqiqatlarının bir hissəsinin bu laboratoriyalarda aparılmasının faydalı olacağını bildirib və bu istiqamətdə əməkdaşlığın çox vacib olduğunu qeyd edib.

**Almaniyaya səfəri çərçivəsində ATU-nun rektoru, professor Gəray Gəraybəylinin başçılıq etdiyi nümayəndə heyəti Mannheim Tibb fakültəsinin Cərrahiyyə Klinikasının nəzdindəki kitabxananı ziyarət edib.**

# 100 illik kitabxana ilə tanışlıq



Bir əsr yaşı olan bu kitabxana 1922-ci ildə Mannheim bələdiyyə hospitalının nəzdində “Həkimlərin kitabxanası” kimi cəmi 40 kv. metrlik otaqda fəaliyyətə başlayıb. Hazırda 1700 kv.m məkanda yerləşən kitabxanada həkimlər, rezidentlər və tələbələrin bilgi toplaması üçün hər cür şərait yaradılıb. ATU-nun nümayəndə heyətinə verilən məlumata görə, hazırda modern sistemlə təchiz olunmuş kitabxananın geniş oxu zalları və kompüter otaqları, 30 mindən artıq tibbi və elmi jurnallara çıxış imkanı yaradan elektron bazası mövcuddur.

Səfər zamanı ATU-nun nümayəndə heyəti “TheSİMa” Bacarıqlar Laboratoriyasının işi ilə də tanış olub. Qeyd olunub ki, 2008-ci ildə yaradılan TheSiMada dərslər "Tibb və tiblə əlaqəli peşələr üçün Mannheim İslahat Kurikulumu"na (MaReCuM) inteqrasiya olunub, nəzəri və praktik bacarıqlar arasında keçid təşkil edir. 700 kv. metrdən çox sahədə fəaliyyət göstərən laboratoriyada təcili yardım, ultrasəs, gips otaqları, həkim kabineti, xəstə otaqları və əməliyyatxana daxil olmaqla, ümumilikdə tibb təhsili üçün 14 tematik təcrübə otağı mövcuddur. Tədris prosesindən əlavə, TheSiMa həm də tədris və imtahanlara yeni formatların hazırlanması, sınaqdan keçirilməsi və qiymətləndirilməsi üçün laboratoriya rolunu oynayır. Tələbələrin OSKİ (Obyektiv Strukturlaşdırılmış Klinik İmtahan) imtahanı da bu laboratoriyada keçirilir.

Laboratoriya rəhbərliyi ilə görüş zamanı Azərbaycan Tibb Universiteti və Mannheim Tibb fakültəsi arasında əməkdaşlıq imkanları sırasına OSKİ imtahanları ilə bağlı istiqamətin də əlavə oluna biləcəyi bildirilib.

**İyunun 3-də Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş “Müasir təbabətin aktual problemləri” mövzusunda beynəlxalq konfrans keçirilib.**

# Ulu Öndərə sonsuz sevginin daha bir nümunəsi

## Müasir təbabətin aktual problemlərinə dair beynəlxalq konfrans keçirilib



Azərbaycan Endoskopik-Laparoskopik Cərrahlar Assosiasiyası İctimai Birliyinin, İncir və Qlobal Sağlamlıq Xidmətinin birgə təşkilatçılığı ilə keçirilən konfrans Azərbaycan Respublikasının Dövlət Himni və Türkiyə Cümhuriyyətinin “İstiqlal” marşının səsləndirilməsi ilə başlayıb. Bundan sonra Ulu Öndərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub, dahi şəxsiyyətin ömür yolunu əks etdirən videoçarx izlənilib.

Tədbirdə ATU-nun Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov açılış nitqi ilə çıxış edib. O, bütün dövrlərdə xalqa ləyaqətlə, sədaqətlə xidmət edən Ulu Öndərin öz həyatını Azərbaycanın xoşbəxt gələcəyinə, dövlətçiliyimizin möhkəmləndirilməsinə həsr etdiyini vurğulayıb.

Tədbir çərçivəsində Azərbaycan alimləri ilə yanaşı, qardaş Türkiyə alimlərinin də müxtəlif bölmələr üzrə çox maraqlı məruzələr təqdim edəcəyinə inandığını deyən prorektor, iştirakçılara universitetin rektoru, professor Gəray Gəraybəylinin salamlarını çatdırıb və konfransın işinə uğurlar arzulayıb.

Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı da açılış mərasimində çıxış edərək bildirib ki, “Bir millət, iki dövlət” anlayışı ilə Azərbaycanla Türkiyənin sevinci də, kədəri də birdir. Türkiyə-Azərbaycan əlaqələrini ən yüksək müttəfiqlik səviyyəsinə qaldıran Şuşa Bəyannaməsinin əhəmiyyətini vurğulayan C.Bağçı qeyd edib ki, Türkiyə 44 günlük Vətən müharibəsində olduğu kimi, azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq işlərində də qardaş Azərbaycanın yanındadır.

Diplomat səhiyyə və tibb elmi sahəsində də qarşılıqlı əməkdaşlığın yüksək səviyyədə olduğunu və bu günkü konfransın müştərək əməkdaşlığa yeni töhfə verəcəyini diqqətə çatdırıb.

Milli Məclisin üzvü, tibb elmləri doktoru Rəşad Mahmudov, İncir və Qlobal Sağlamlıq Xidmətinin rəhbəri Fədakar Günsili və Səhiyyə Nazirliyinin Baş onkoloqu Azad Kərimli də çıxışlarında Ulu Öndərin elm-təhsil və səhiyyə sahəsində müstəsna xidmətlərindən danışaraq, konfransın qarşılıqlı təcrübə mübadiləsi baxımından faydalı olacağına əminliklərini ifadə ediblər.

Tədbir iştirakçılarını təşkilat komitəsinin adından salamlayan konfransın sədri, tibb elmləri doktoru Müşfiq Həsənov həm sovet dönəmində, həm də müstəqillik dövründə Azərbaycan xalqını öz müdrik siyasəti, cəsarəti, uzaqgörənliyi ilə bir çox bəlalardan qurtaran Ulu Öndərimizin nəsillərə örnək olan tarixi missiyasından söhbət açıb. O, tibbin aktual problemlərinə həsr olunmuş bu beynəlxalq konfransı da Ümummilli Liderə sonsuz sevgi və ehtiramın bir nümunəsi kimi dəyərləndirib.

Çıxışının sonunda bütün tədbir iştirakçılarına təşəkkürünü bildirən konfransın sədri, məruzəçilərə və müzakirələrə qatılan mütəxəssislərə uğurlar diləyib.

Açılış mərasimi Əməkdar artist Nuriyyə Hüseynova və müğənni Çilənay Hüseynovanın ifasında Heydər Əliyevin sevdiyi mahnıların ifa olunması ilə başa çatıb.

Daha sonra konfrans öz işini bölmə iclasları ilə davam etdirib. Qastroenterologiya və hepatologiya üzrə maraqlı məruzələr dinlənilib.

# ATU Üsküdar Universiteti ilə əməkdaşlığa başlayır



**Türkiyənin Üsküdar Universitetinin rektoru, professor Nazife Güngörun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Tibb Universitetində olub.**

Qonaqları salamlayan ATU-nun rektoru, professor Gəray Gəraybəyli bildirib ki, son illər qardaş Türkiyə universitetləri ilə ATU arasında əlaqələr daha da genişlənib: “Universitetimizin beynəlxalq əlaqələri günü-gündən inkişaf edir. Bir çox universitetlərin rektorları ilə elə bu zalda əməkdaşlıqlara imza atmışıq. ATU ildən-ilə müasirləşir, tədris prosesi daim təkmilləşdirilir. Buna ən bariz nümunə kimi, 3 ixtisas üzrə beynəlxalq akkreditasiyadan keçməyimizi göstərə bilərəm. O cümlədən ikili diplom məsələləri həmişə diqqət mərkəzindədir”.

Görüşdə iki universitetin əməkdaşlıq edə biləcəyi sahələrlə bağlı ətraflı müzakirələr aparılıb. Sonda birgə fəaliyyətin çərçivələrini müəyyən edəcək memorandumun hazırlanması haqda qərar verilib.

# Tümen Dövlət Tibb Universiteti ilə memorandum imzalanıb



**ATU-da Tümen Dövlət Tibb Universitetindən gələn nümayəndə heyəti ilə görüş keçirilib. Hər iki universitetin rəhbər şəxsləri arasındakı görüş zamanı ali təhsil müəssisələri arasında əməkdaşlığa dair memorandum imzalanıb.**

Tümen Dövlət Tibb Universitetinin rektoru İvan Petrov təmsil etdiyi ali məktəbin 500-dən çox əməkdaşının, 200-dən artıq əcnəbi tələbəsinin olduğunu vurğulayıb. Universitetin nəzdində elmi araşdırma institutları, klinikaların fəaliyyət göstərdiyini söyləyib. İ.Petrov Azərbaycan Tibb Universiteti ilə qarşılıqlı əməkdaşlığın böyük əhəmiyyət daşıdığını bildirib.

ATU-nun rektoru, professor Gəray Gəraybəyli qonaqlara universitetin tarixi, fəaliyyəti, son illər ərzində icra olunan innovativ layihələr, əldə edilən nailiyyətlər barədə məlumat verib. Hazırda ATU-da 3 minə yaxın əcnəbi tələbənin təhsil aldığını bildirən rektor G.Gəraybəyli, universitetimiz üçün beynəlxalq əlaqələrin mühüm əhəmiyyət kəsb etdiyini vurğulayaraq, qonaqlarla mümkün əməkdaşlıq istiqamətlərindən danışıb və bunun hər iki tərəf üçün faydalı ola biləcəyini nəzərə çatdırıb.

Daha sonra tərəflər arasında qarşılıqlı əməkdaşlığa dair memorandum imzalanıb. Görüşdə Rusiya Elmlər Akademiyasının akademiki, professor Andrey Vajenin, Tümen Dövlət Tibb Universitetinin kafedra rəhbəri Rasim Tamrazov da iştirak ediblər.

# ATU-nun rektoru tanınmış mütəxəssisə sertifikat verib



**Xəbər verdiyimiz kimi, ATU-nun əməkdaşları üçün “Effektiv strateji planlaşdırma və proqram qiymətləndirilməsi” və “Effektiv kurrikulumun/sillabusun yaradılması” adlı təlimlər keçirilib.**

Strateji planlaşdırma və proqram qiymətləndirilməsi üzrə təlimdə kafedra müdirləri, struktur bölmə rəhbərləri və əməkdaşlar iştirak edib. Kurrikulumun/sillabusun yaradılması üzrə təlim isə müvafiq olaraq tədris prosesində iştirak edən heyət üçün təşkil olunub.

Rektor, professor Gəray Gəraybəyli təlimləri keçirmiş Tiffany Tillmanı qəbul edib. Universitet əməkdaşlarının fəaliyyət keyfiyyətinin yüksəldilməsi məqsədini daşıyan təlimlərə görə T.Tillmana təşəkkürünü çatdıran rektor G.Gəraybəyli, tanınmış mütəxəssisə sertifikat təqdim edib. Öz növbəsində T.Tillman təlimlərə cəlb olunmuş əməkdaşlarımıza müvafiq sertifikatlar verib.

Qeyd edək ki, təlimlər Müstəqil Akkreditasiya və Reytinq Agentliyinin xarici ekspert komissiyasının rəsmi hesabatının tövsiyəsinə uyğun olaraq, T.Tillman tərəfindən keçirilib.

# ATU-da imtahan prosesi davam edir

## Universitetin rəhbər şəxsləri Dövlət Attestasiyası imtahanlarının gedişini izləyiblər

**Azərbaycan Tibb Universitetinin Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev, Tədris departamentinin rəhbəri, dosent Kamandar Yaqubov iyunun 6-da Bakı Sağlamlıq Mərkəzində, Stomatoloji Mərkəzdə və Əczaçılıq korpusunda I Müalicə-profilaktika, Stomatologiya və Əczaçılıq fakültələrinin məzun kurslarının Dövlət Attestasiyası imtahanlarının gedişini izləyiblər. .**

Məzun kursları üçün iyunun 6-dan 24-dək təşkil olunan Dövlət Attestasiyasının gedişinə universitetin Tədris və müalicə işləri üzrə prorektoru, Tədris departamentinin rəhbəri, eləcə də fakültələrin dekanları, dekan müavinləri tərəfindən mütəmadi nəzarət edilir. “Təbib” qəzetinin əməkdaşına bu barədə məlumat verən Tədris departamentinin rəhbəri K.Yaqubov imtahan prosesində heç bir problemin olmadığını, məzunların universitetin daxili nizam-intizam qaydalarına uyğun olaraq imtahan verdiklərini bildirib. O, Bakı Sağlamlıq Mərkəzi ilə bağlanan müqaviləyə əsasən, Müalicə-profilaktika fakültəsində “Müalicə işi” ixtisası üzrə təhsil alan tələbələrin Təlim Bazasında təlimlərə qoşulduğunu və iyunun 6, 7, 8, 9, 10 və 12-də “Daxili xəstəliklər”, “Cərrahi xəstəliklər” və “Ginekologiya” fənlərindən bacarıq imtahanı verdiklərini qeyd edib: “İyunun 13, 16, 19-da isə məzun tələbələr İmtahan Mərkəzində imtahanın 2-ci mərhələsində iştirak edəcəklər. II Müalicə-profilaktika fakültəsinin məzun kursları iyunun 8, 12, 19-da test, ayın 13, 14, 16, 17 və 18-də Bakı Sağlamlıq Mərkəzində bacarıq imtahanları verəcəklər”.

Departament rəhbəri yaz semestrinin yay imtahan sessiyası ilə bağlı da ətraflı məlumat verib. Boloniya Bəyannaməsinə uyğun olaraq, hər semestr 15 həftə tədris, 5 həftə isə imtahan prosesinin keçirilməsinin nəzərdə tutulduğunu qeyd edib: “Bu səbəbdən universitetimizdə iyunun 1-dən iyulun 4-dək imtahan prosesi olacaq. Üzrlü səbəbdən imtahanlara qatılmayanlar və ya “F” qiyməti alanlar 7, 10, 11 iyulda təkrar təşkil olunacaq imtahanlarda iştirak edə biləcəklər. Tələbə imtahandan “F” alıbsa, fənni təkrar dinləmədən, iki fəndən kreditin 25 faizini ödəmək şərti ilə imtahana qatılmaq hüququndan yararlanacaq.

İyunun 1-dən etibarən Əczaçılıq fakültəsinin 1, 2, 3, Stomatologiya fakültəsinin 1, 2, 3, 4, Müalicə-profilaktika fakültəsinin “Müalicə işi” ixtisası üzrə 4, 5, “Tibb” ixtisası üzrə 1, 2, 3, o cümlədən İctimai səhiyyə fakültəsinin 4 ixtisas - “Tibbi-profilaktika” 4, 5, “İctimai səhiyyə” 1, 2, 3, “Tibb bacısı” 1, 2, 3, “Fizioterapiya və tibbi reablitasiya” ixtisası üzrə 1, 2, 3-cü kurs tələbələri imtahan sessiyasında iştirak edir”.



Dosent Kamandar Yaqubov tətbiq olunan yeniliklərdən də danışıb: “İmtahan sessiyası İmtahan Mərkəzində testləri cavablandırmaqla aparılır. Bu istiqamətdə bizim artıq çoxillik təcrübəmiz var. İlk tədris ilidir ki, universitetin 1-ci kurslarında davamiyyət balı ləğv olunub. Böyük Elmi Şuranın qərarı ilə tələbə imtahana giriş üçün 50 balın 10 balını sərbəst işdən, 40 balını isə kollokviumdan qazanır. Yuxarı kurslarda oxuyan tələbələrimiz isə 10 bal davamiyyətə, 10 bal sərbəst işə, 30 bal kollokviuma görə əldə edə bilir.

Digər 50 balı isə tələbə imtahana düşən 25 test sualını cavablandıraraq toplaya bilər. Hər sual 2 balla qiymətləndirilir və 30 dəqiqə cavablandırma vaxtı verilir. İmtahan prosesinin ilkin nəticələrinin təhlili göstərir ki, ötən dövrdə normativ qərarlardan kənaraçıxmalar müşahidə olunmayıb. İmtahan prosesi öz axarı ilə davam edir. uğurlar arzulayırıq”.

# Ulu Öndərin milli elm və təhsil quruculuğu sahəsindəki xidmətləri



**Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncama əsasən, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə 2023-cü il "Heydər Əliyev İli" elan olunub.**

Bütün ölkəmizdə qeyd edilən şanlı 100 illiyin təntənələri sırasına həsr etdiyim bu kiçik yazımda Ulu Öndərin elm-təhsil sahəsindəki xidmətlərinin müəyyən dövrünə az da olsa işıq salmağa çalışacağam. Heydər Əliyev hələ Azərbaycana birinci rəhbərliyi dövründə təhsilin inkişafına böyük önəm verirdi. Ötən əsrin 70-80-ci illərində onun rəhbərliyi altında təhsil müəssisələrinin geniş şəbəkəsinin yaradılması və həmin şəbəkənin zəngin maddi-texniki bazasının formalaşdırılması, eləcə də elmi-tədqiqat institutlarında fundamental elmi inkişafın təmin olunması gələcəkdə milli müstəqillik üçün zəruri intellektual zəmin yaratmışdır. Bildiyimiz kimi, həmin illərdə respublikada ali və orta ixtisas müəssisələri üçün yeni binaların tikintisi geniş vüsət almış, təhsil infrastrukturu tamamilə yenilənmişdir. Respublikanın müxtəlif bölgələrində 800-ə yaxın məktəb tikilərək istifadəyə verilmiş, ölkəmizdə fəaliyyət göstərən ali məktəblərin ümumi sayı 12-dən 17-yə, tələbələrin sayı isə 70 mindən 100 minə qədər artmışdır.

O dönəmdə Azərbaycanın əldə etdiyi mühüm tarixi nailiyyətlərdən biri də xalqın uzaq gələcəyini nəzərdə tutan milli kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssis kontingentinin yaradılmasıdır. Hər il azərbaycanlı gənclərin təhsil alması üçün böyük qruplarla dünyanın nüfuzlu ali məktəblərinə göndərilməsi ənənəsi olmuşdur. Həmin dövrdə SSRİ-nin 170 qabaqcıl ali təhsil ocağına 15 minə yaxın azərbaycanlı göndərilmiş və hər il xaricə 800 tələbə yola salınmışdır.

Heydər Əliyevin 1998-ci ildə Azərbaycanda təhsil sahəsində islahatlar üzrə dövlət komissiyasının yaradılması haqqında sərəncamı isə bu sahədə təkmil qanunverici bazanın formalaşdırılması, təhsil konsepsiyasının hüquqi əsaslarının yaradılması məqsədindən irəli gəlmişdi. Çox qısa müddətdə komissiyanın Azərbaycanın təhsil sahəsində hazırladığı islahat proqramı geniş müzakirələrdən sonra 1999-cu ildə imzalanaraq qüvvəyə mindi. Bu proqram ölkəmizdə təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması ilə yanaşı, həm də milli təhsil ənənələrinə sadiq qalmasını təmin etdi.

O zaman ümumtəhsildəki ən ciddi yeniliklərdən biri latın qrafikalı əlifbaya keçilməsi idi. Heydər Əliyev azərbaycançılığın ən mühüm komponenti olan Ana dilinin inkişaf etdirilməsi sahəsində də mühüm tədbirlər həyata keçirdi. Hələ 1978-ci ildə Azərbaycan SSR-in Konstitusiya layihəsi qəbul edilərkən Azərbaycan dili Ana dili kimi təsbitlənmişdi. Ötən əsrin 70-ci illərində nəşr olunmuş 3 cildlik müasir "Azərbaycan dili" dərsliyinə Dövlət Mükafatının verilməsi də Heydər Əliyevin atdığı mühüm addımlardan biri idi.

İkinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyevin elm və təhsil sahəsində atdığı addımlardan biri də budur ki, onun müvafiq fərmanı ilə Elmlər Akademiyasına Milli Elmlər Akademiyası adı verilib və bununla da elmimizin inkişafında akademiyanın rolu və nailiyyətləri rəsmən təsdiqlənib. Bundan sonra Ulu Öndərin tövsiyələri rəhbər tutulmaqla burada köklü islahatların aparılması, elmi tədqiqat istiqamətlərinin dəqiqləşdirilməsi, elmi bazanın hazırlanması sahələrinə dair tədbirlər həyata keçirilib. Eyni zamanda, elmin strateji inkişafı və AMEA-da islahatlar konsepsiyası hazırlanıb.

Demokratik, hüquqi dövlət quruculuğu yoluna qədəm qoymuş müstəqil dövlətimiz üçün insan hüquqları və azadlıqları problemlərinə dair elmi tədqiqat işlərinin aparılması məqsədilə Heydər Əliyevin sərəncamı ilə AMEA-nın İctimai Elmlər Bölməsi nəzdində İnsan Hüquqları üzrə Elmi Tədqiqat İnstitutu yaradılıb.

Ümummilli Liderin 1969-cu ildə Azərbaycanın dövlət rəhbərliyinə gəldiyi vaxtdan etibarən Azərbaycan Tibb İnstitutunun (indiki ATU) maddi-texniki bazası möhkəmləndirilib. Bu ali tibb ocağına Heydər Əliyevin göstərdiyi diqqət-qayğı daim hiss olunub və onun müstəsna xidmətləri sayəsində yüksək ixtisaslı elmi-pedaqoji kadrlar hazırlanıb. Qeyd edim ki, Ulu Öndər dörd dəfə universitetimizdə olub. ATU-nun yaranmasının 1980-ci ildə 50, 2000-ci ildə isə 70 illik yubileylərində iştirak edib və universitet əməkdaşlarını elmi adlarla, orden-medallarla mükafatlandırıb. Bundan başqa, 1998-ci ildə universitetin 5 saylı tədris binasının, 2000-ci ildə isə unikal akt zalının açılışlarına gəlib. Ulu Öndərin müəllim və tələbələrlə görüşlərini kollektivimiz daim xatırlayır.

2000-ci ildə onun sərəncamı ilə Azərbaycanda hərbi həkimlərin yetişdirilməsi məqsədilə ATU-nun nəzdində Hərbi tibb fakültəsi yaradılıb. İkinci Qarabağ müharibəsi zamanı bu fakültənin yetirmələri qəhrəman döyüşçülərimizin, fədakar qazilərimizin xidmətində durublar. 2002-ci ildə Ulu Öndərin təşəbbüsü ilə ATU-nun ilk klinikası sayılan Tədris Stomatoloji Klinika yaradılıb. Sonralar bu ideya Prezident İlham Əliyev tərəfindən davam etdirilib və onun qayğısı sayəsində ATU-da daha 3 klinika yaradılıb. Yeri gəlmişkən qeyd edək ki, bu klinikalar regionun ən möhtəşəm və qabaqcıl klinikaları sırasındadır. Bu klinikalar universitetdə tədrisin keyfiyyətini yüksəltməklə yanaşı, insanların sağlamlığının qorunması vəzifəsini də layiqincə yerinə yetirirlər.

Xüsusi vurğulamaq istəyirəm ki, ATU-nun rektoru, professor Gəray Gəraybəylinin rəhbərliyi və bilavasitə iştirakı ilə "Heydər Əliyev dərslərinin keçirilməsi planı" tərtib edilib. Eləcə də biz bu günlərdə universitetimizdə çoxsaylı və çoxşaxəli tədbirlərin keçirildiyini görürük. Kollektivimiz var qüvvəsi ilə çalışır ki, "Heydər Əliyev İli"nə öz layiqli töhfəsini versin və dahi şəxsiyyətin klassik irsindən bəhrələnərək, onun məntiqli ideyalarının qlobal əhəmiyyətini əsas tutmaqla yeni nailiyyətlərə imza atsın.

**Mirzamin MUXTAROV**
*Yoluxucu xəstəliklər kafedrasının dosenti*

# Şəhid və qazi övladları üçün ödənişsiz tibbi aksiya keçirilib



**1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik və Tədris Cərrahiyyə klinikalarında şəhid və qazi övladları üçün ödənişsiz kompleks tibbi müayinə aksiyası keçirilib.**

Aksiya Səhiyyə Nazirliyinin təşəbbüsü, Azərbaycan Tibb Universiteti və Azərbaycan Pediatrlar Assosiasiyasının birgə təşkilatçılığı ilə baş tutub.

ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri, Tədris Terapevtik Klinikanın Uşaq sağlamlığı və xəstəlikləri şöbəsinin müdiri, dosent Qoşqar İsmayılovun açıqlamasına görə, 3 gün davam edən aksiya çərçivəsində şəhid və qazi övladları, həmçinin internat məktəblərdə oxuyan və digər kateqoriyalardan olan imkansız uşaqlar müayinələrdən keçiriliblər. Klinikaya müraciət edənlərə həkimlərimiz tərəfindən yüksək səviyyədə tibbi xidmət göstərilib. İnsanların bu aksiyaya böyük marağı olduğunu qeyd edən Q.İsmayılov bildirib ki, nəzərdə tutulan vaxt ərzində yüzlərlə adam cəlb olunaraq gün ərzində 150-200 qazi və şəhid övladına ödənişsiz tibbi xidmət göstəriblər.

Tədris Terapevtik Klinikanın direktoru Fərid Eyvazovun verdiyi məlumata görə, aksiyaya klinikanın 25 əməkdaşı cəlb olunaraq gün ərzində 150-200 qazi və şəhid övladına ödənişsiz tibbi xidmət göstəriblər. Direktor bundan sonra hər ay klinikada "Açıq qapı" günlərinin keçiriləcəyini və uşaqların ödənişsiz müayinə olunacağını da diqqətə çatdırıb.

Tədris Cərrahiyyə Klinikasının baş həkimi, professor Fariz Camalovun sözlərinə görə, şəhid və qazi övladları üçün təşkil olunan aksiyanın əsas məqsədi uşaqlarda yaranan xəstəliklərin vaxtında aşkarlanması, eləcə də düzgün müalicə edilməsi və hətta lazım gələrsə, cərrahi əməliyyatların keçirilməsindən ibarətdir.

Məlumatda o da bildirilib ki, ATU-nun Tədris Terapevtik və Tədris Cərrahiyyə klinikalarında keçirilən aksiyada tibbin müxtəlif sahələri üzrə ixtisaslaşmış peşəkar həkim heyəti tərəfindən yüksək səviyyədə müayinə və ambulator müalicə-profilaktik xidmətlər göstərilib.

Aksiya zamanı uşaqlar üçün əyləncəli proqram və şirniyyat süfrəsi də təşkil edilib. Uşaqlar həm əylənib, həm də müayinə olunub. Aksiyadan razılığını bildirən valideynlər bu xeyirxah işi təşkil edənlərə və həkimlərə təşəkkür ediblər.

# Əməkdaşımız Aristotel Universitetində mühazirə oxuyub



**Azərbaycan Tibb Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri, Patoloji anatomiya kafedrasının müdir müavini, dosent Müşfiq Orucov Yunanıstanın Saloniki şəhərindəki Aristotel Universitetinin Tibb fakültəsində olub. Səfər 15-19 may tarixlərində Erasmus+ Beynəlxalq Mobillik Proqramı çərçivəsində baş tutub.**

M.Orucov proqram müddətində Tibb fakültəsinin dekan müavini, professor S.Triaridis, Patologiya kafedrasının müdiri, professor P.Hytiroglou, Histologiya və embriologiya kafedrasının müdiri, professor S.Antonia, Tibbi fizika və rəqəmsal innovasiyalar laboratoriyasının müdiri, professor P.Bamidis, Tibb fakültəsinin Beynəlxalq təhsil proqramının direktoru, Neyrocərrahiyyə kafedrasının müdiri, professor N.Foroglou ilə görüşlər keçirib. ATU-nun əməkdaşı Aristotel Universitetinin tələbələri üçün "Azərbaycanda tibb təhsilinin dünəni, bu günü və sabahı" mövzusunda mühazirə oxuyub, tibb təhsili və klinik bacarıqlar üzrə mühazirə və praktik məşğələ dərslərində iştirak edib.

# İntellektual yarış təşkil olunub



İyunun 10-da Azərbaycan Tibb Universiteti Tələbə Həmkarlar İttifaqı Komitəsinin dəstəyi və ATU İntellektual Oyunlar Klubunun üzvlərindən "Sinaps" komandasının təşkilatçılığı ilə "Nə? Harada? Nə zaman?" oyunu üzrə tələbələrarası "Hippokrat" kuboku turniri baş tutub.

30 sualın təqdim olunduğu turnirdə müxtəlif universitetlərin tələbələrindən ibarət 12 komanda iştirak edib. Yarışın son nəticələrinə əsasən, "Qəzəlxan" komandası I yeri qazanaraq kubokun sahibi olub. II və III yerləri isə müvafiq olaraq "Old School" və "Vendetta" komandaları əldə ediblər.

Qaliblər Azərbaycan Tibb Universiteti Tələbə Həmkarlar İttifaqı Komitəsi tərəfindən mükafatlandırılıb. Turnirin iştirakçıları dəstəyə görə ATU THİK sədri Qoşqar İsmayılova minnətdarlıqlarını bildiriblər.

# Məşhur cərrahın 100 illiyi qeyd olunub

## Professor Bəybala Abasovu hər kəs sevgiylə xatırlayır

**İyunun 2-də ATU-nun Tədris Cərrahiyyə Klinikasında məşhur cərrah, görkəmli alim, Əməkdar elm xadimi, professor Bəybala Abasovun 100 illik yubileyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib. "Cərrahlığın aktual problemləri" mövzusunda keçirilən konfransın açılış mərasimində universitetin Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov giriş nitqi ilə çıxış edib.**

Azərbaycan Tibb Universitetində tanınmış alimlərin, həkimlərin yubileylərinin qeyd edilməsinin artıq bir ənənəyə çevrildiyini vurğulayan prorektor, Bəybala Abasovun da belə şəxsiyyətlərdən biri olduğunu söyləyib. O öz müəllimi haqda qürur hissi ilə danışaraq yaddaşında dərin iz buraxan xatirələrini dilə gətirib. B.Abasovun şərəfli ömür yolunun həm də böyük çətinliklərdən keçdiyini xatırladıb: "Bəybala Abasov ölkəmizin gözəl guşələrindən biri olan Xızı rayonunun Zərgərli kəndində dünyaya göz açıb. O, kiçik yaşlarından Bakı şəhərinə köçüb, II Dünya müharibəsi dövründə böyük əzab-əziyyətlə üzləşib. Gənc yaşlarında atasını itirən B.Abasov, çoxuşaqlı ailənin yükünü öz çiyinlərində daşımaq məcburiyyətində qalıb. Gecə-gündüz çalışaraq ailəsinə maddi dəstək verib. Orta təhsilini başa vurduqdan sonra bir müddət maliyyə sahəsində işləyib. Daha sonra öz arzusuna qovuşaraq Tibb Universitetində təhsil alıb. Universiteti bitirdikdən sonra müəllimlərinin təklifi ilə ordinaturada saxlanılıb və elmi fəaliyyətlə məşğul olub".





B.Abasovun 1960-cı ildə namizədlik, 1968-ci ildə doktorluq dissertasiyasını müdafiə etdiyini diqqətə çatdıran prorektor, böyük rezonans doğuran bir məqamı da yada salıb. Qeyd edib ki, namizədlik dissertasiyası müdafiə edən gənc azərbaycanlı cərrah hələ elmi ad almazdan qabaq Moskva tibbi ictimaiyyətinin diqqətini çəkmişdi. Belə ki, 1957-ci ildə Moskvada nəşr edilən "Medisinski rabotnik" qəzeti onun haqqında yazdığı məqaləyə "Gənc cərrahın 1000 əməliyyatı" sərlövhəsini vermişdi.

Çıxışında görkəmli cərrahın tələbələrə, gənc həkimlərə xüsusi həssaslıqla yanaşdığını vurğulayan R.Bəylərov, onun apardığı cərrahi əməliyyatlarda assistent kimi iştirakını da məmnunluqla xatırladığını deyib. Eyni zamanda öz şəfalı əlləri ilə minlərlə insanı sağlamlığına qovuşduran professor B.Abasovun misilsiz xidmətlərinin dövlətimiz tərəfindən yüksək qiymətləndirildiyini, ən ali mükafatlara layiq görüldüyünü bildirib. Sağlığında mənalı ömür yaşayan böyük alimin bu gün xüsusi ehtiramla anıldığını, onu tanıyanların yaddaşında daim yaşadığını və yaşayacağını söyləyib.

Ümumi cərrahiyyə kafedrasının müdiri, professor Elçin Ağayev ilk növbədə konfransın ərsəyə gəlməsində əməyi olan şəxslərə, şəxsən rektor Gəray Gəraybəyliyə, eyni zamanda bütün konfrans iştirakçılarına təşəkkürünü bildirib. Bundan sonra professor Bəybala Abasovun həyat və yaradıcılığı barədə konfrans iştirakçılarına ətraflı məlumat verib. "Bəybala müəllimin fəaliyyətinə, onun böyük əməyinə, zəngin elmi yoluna ən böyük qiymət Ulu Öndərimiz Heydər Əliyev tərəfindən 2000-ci ildə "Şöhrət " ordeni təqdim etməklə verilib" – deyə bildirib.

Hələ tələbəlik illərindən elmi fəallığı ilə seçilən Bəybala Abasovun damar cərrahiyyəsi sahəsindəki böyük xidmətlərindən söz açan natiq qeyd edib ki, onun ən gözəl cəhətləri səmimiyyəti, saflığı, təmənnasızlığı idi: "İlk günlərdən bizə ümumi cərrahiyyə fənnindən mühazirələr oxumağa başladı. Bəybala müəllimdə böyük enerjini, öyrətmək eşqini hiss etdik və bizdə də bu sahəyə həvəs yarandı".

E.Ağayev ustadı, müəllimi B.Abasovla bir yerdə çalışmaqla fəxr etdiyini, onun zalda əyləşən qohumlarının da gözlərindən fəxarət duyduğunu deyib və böyük sevgi ilə xatırlanan o gözəl insana Allahdan rəhmət diləyib.

Ümumi cərrahlıq kafedrasının professoru Cabbar Hacıyev, professor Rafiq Təhməzov, Oftalmologiya kafedrasının müdiri, professor Paşa Musayev, Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının müdiri, professor Məhbubə Vəliyeva və II Mamalıq-ginekologiya kafedrasının dosenti Səfa Bağırova da tədbirdə çıxış edərək görkəmli cərrahla bağlı xatirələrini bölüşüblər.

Professor C.Hacıyev xalq şairi Cabir Novruzun "Sağlığında qiymət verin insanlara" şeirindən bir hissə səsləndirib. Xatırladıb ki, şair bu şeiri Bəybala müəllimlə məsləhətləşdikdən sonra ilk dəfə Şuşa şəhərində Vaqifin məqbərəsinin açılışında oxuyub. Şairin həmin şeiri Azərbaycana Keçici Qırmızı Bayraq veriləndə də oxuduğunu və Ulu Öndərin çox xoşuna gəldiyini söyləyib:

*Sağlığında sevindirin təmizləri,*
*Siz həyatda bu amalla addımlayın.*
*Sağlığında ifşa edin xəbisləri,*
*Satqınlara sağlığında satqın deyin...*

Konfransda çıxış edənlər görkəmli cərrahın tələbkarlığı ilə yanaşı, əməkdaşlara göstərdiyi qayğıdan, tələbələrinin uğuruna öz uğuru kimi sevinməsindən, sadalamaqla bitməyən insani keyfiyyətlərindən böyük məhəbbətlə söhbət açıblar.

Ailə üzvləri adından çıxış edən B.Abasovun qızı İradə Abasova yubiley konfransının təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirib.

Konfrans cərrahlığın aktual problemlərinə dair məruzələrlə öz işini davam etdirib.

**Gültəkin ƏLİABBASQIZI,**
*I Müalicə-profilaktika fakültəsinin dekan müavini, I Uşaq xəstəlikləri kafedrasının assistenti*

**Azərbaycan Tibb Universitetində tanınmış anatom-alim, görkəmli elm xadimi, İnsan anatomiyası və tibbi terminologiya kafedrasının məsləhətçi-professoru Rafiq Əsgərovun 90 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.**



# Görkəmli anatom-alimin 90 illiyi münasibətilə tədbir keçirilib



ATU-nun Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev açılış nitqində alimin keçdiyi həyat yolu və elmi fəaliyyətinə toxunaraq, onun çalışdığı kafedrada tibb elminə gətirdiyi bir sıra yeniliklərdən söhbət açıb. Yubilyarı ATU-nun rektoru, professor Gəray Gəraybəylinin adından təbrik edən S.Əliyev onu tibb elminin görkəmli nümayəndələrindən biri, dövrümüzün canlı tarixi kimi dəyərləndirib: "Ölkəmizdə təbabət elminin və tibb təhsilinin tərəqqisində, eləcə də İnsan anatomiyası və tibbi terminologiya kafedrasının inkişafında xüsusi xidmətləri olan alimlərdən biri bu gün ömrünün 90-cı yubiley ilini şərəflə, yüksək yaradıcılıq eşqi ilə qarşılayan professor Rafiq Əsgərovdur. Rafiq müəllim yaşadığı bu çoxillik uzun və mənalı ömrünün 70 ildən çoxunu Azərbaycan Tibb Universitetinə həsr edib. O keçdiyi çətin, lakin şərəfli yolda aspirantlıqdan professorluğa və kafedra müdiri vəzifəsinə qədər yüksəlib. Uzun illər ərzində anatomiya kafedrasının müdiri olmaqla yanaşı, universitetimizin ictimai-mədəni həyatında da yaxından iştirak edib. Fakültə dekanı və prorektor vəzifələrini müvəffəqiyyətlə icra edib".

Tədbirdə çıxış edən Rusiya Elmlər Akademiyasının akademiki, İnsan anatomiyası və tibbi terminologiya kafedrasının məsləhətçi-professoru, ə.e.x. Vaqif Şadlinski hazırda ömrünün müdriklik çağlarını yaşayan istedadlı alimin uzun illər ərzində ATU-da gənc alimlərin fəaliyyətinə dəstək olduğunu bildirib: "Rafiq Əsgərov Azərbaycanda elmi anatomiyanın banisi, görkəmli anatom-alim Kamil Balakişiyevin yaratdığı elmi məktəbin yetirmələrindən və davamçılarındandır. Onun rəhbərliyi altında 10 nəfərdən artıq tədqiqatçı doktorluq və namizədlik dissertasiyası müdafiə edib. Xüsusi qeyd etmək istəyirəm ki, Rafiq müəllim anatomiya elminin yüksək səviyyədə tədrisində mühüm rol oynayıb. Onun yetişdirdiyi tələbələrin bir çoxu indi xarici ölkələrdə fəaliyyət göstərir və R.Əsgərovla daim sıx əlaqə saxlayırlar". Professor Vaqif Şadlinski gənclərin inkişafına daim dəstək olan Rafiq Əsgərovun kafedranın professoru və ATU-nun nəzdində fəaliyyət göstərən Dissertasiya Şurası sədrinin müavini vəzifəsini yerinə yetirdiyini də qeyd edib.

Yubilyarın həyatı və fəaliyyəti haqqında geniş məlumat verən İnsan anatomiyası və tibbi terminologiya kafedrasının müdiri, dosent Anar Abdullayev bildirib ki, Rafiq Əsgərov 1933-cü il mayın 11-də Bakı şəhərində, ziyalı ailəsində doğulub. 1941-51-ci illərdə Bakıdakı 6 nömrəli orta məktəbdə təhsil alıb, məktəbi əla qiymətlərlə bitirərək Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olub. Rafiq Əsgərov 1954-cü ildə, hələ institutun III kursunda oxuyarkən Normal anatomiya kafedrasında laborant, beşinci kursda isə baş laborant vəzifələrinə təyin edilib. 1957-ci ildə institutu fərqlənmə diplomu ilə bitirən gənc alim Normal anatomiya kafedrasında aspiranturada saxlanılıb və oranı bitirdikdən sonra kafedranın assistenti vəzifəsinə seçilib. 1985-ci ildə ATİ-nin Operativ cərrahlıq və topoqrafik anatomiya kafedrasının müdiri vəzifəsinə seçilib: "Professor Rafiq Əsgərov 200-dən çox elmi əsərin, monoqrafiya, dərslik və dərs vəsaitlərinin, metodiki göstərişlərin, Anatomiya Muzeyi haqqında kitabların, onlarla elmi-kütləvi məqalənin müəllifidir. Onun şəxsən tanıdığı məşhur insanlar haqqında son illərdə qələmə aldığı publisistik oçerkləri üç kitab həcmində toplanıb və işıq üzü görüb".

Rafiq Əsgərovun 1985-90-cı illərdə institutun Operativ cərrahlıq və topoqrafik anatomiya kafedrasının müdiri vəzifəsində çalışdığı və kafedranın yenidən qurulmasına böyük əmək sərf etdiyi vurğulanıb. İstedadlı alim 1988-1993-cü illərdə universitetimizin Elmi işlər üzrə prorektoru vəzifəsini uğurla yerinə yetirərək, kollektivin dərin rəğbətini qazanıb.

Qeyd olunub ki, R.Əsgərovun elmi fəaliyyəti dövlət tərəfindən də yüksək qiymətləndirilib. O, 2000-ci ildə - ATU-nun 70 illik yubileyi ərəfəsində "Tərəqqi" medalına, 2007-ci ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülüb. Tanınmış anatom-alim dəfələrlə Səhiyyə Nazirliyinin və Azərbaycan Tibb Universitetinin fəxri fərmanları ilə təltif olunub. O, 2017-ci ildən İnsan anatomiyası və tibbi terminologiya kafedrasının məsləhətçi-professoru vəzifəsində çalışır.

Yubilyarla bağlı ürək sözlərini bölüşən professorlar Sudeyf İmamverdiyev, Məhbubə Vəliyeva və Sahib Musayev bildiriblər ki, o, elmdə gözəl alim olduğu kimi, həyatda da səmimi insan və qayğıkeş ailə başçısıdır. Onlar Rafiq Əsgərovun hazırda gümrah şəkildə böyük səylə elmi və pedaqoji fəaliyyətini davam etdirməsinin onun şəxsi keyfiyyətlərinin göstəricisi olduğunu da qeyd ediblər.

Sonda çıxış edən professor Rafiq Əsgərov xoş sözlərə və təbriklərə görə hər kəsə təşəkkür edib. Həmçinin konfransın təşkilinə görə ATU-nun rektoru, professor Gəray Gəraybəyliyə, professor Vaqif Şadlinski başda olmaqla, doğma kollektivinə və eləcə də tədbir iştirakçılarının hər birinə minnətdarlığını bildirib.

**M.ƏLƏKBƏRLİ**

**ATU-nun Sitologiya, embriologiya və histologiya kafedrasının müdiri, professor Eldar Qasımov və ETM-in Elektron mikroskopiya şöbəsinin böyük elmi işçisi, biologiya üzrə fəlsəfə doktoru Fuad Rzayev bu günlərdə Gürcüstanın Tbilisi şəhərində keçirilən V Beynəlxalq Biennal Simpoziumda iştirak ediblər.**

# ATU-nun əməkdaşları beynəlxalq simpoziumda iştirak edib




"Beyin və Neyroplastiklik: Struktur və Molekulyar Aspektlər" mövzusundakı simpozium çərçivəsində əməkdaşlarımız məruzələr və posterlə çıxış ediblər. Tədbirdə ABŞ, İsrail, Hollandiya, Macarıstan, Türkiyə və s. ölkələrdən olan tanınmış alimlərin yerinə yetirdikləri elmi mövzular ətrafında geniş müzakirələr aparılıb. Simpoziumun sonunda əməkdaşlarımızın hər biri beynəlxalq sertifikatla təltif olunub.

Onu da qeyd etmək lazımdır ki, 2018-ci ildə Azərbaycan Tibb Universiteti ilə Gürcüstanın İvane Biritişvili adına Eksperimental Biotibb Mərkəzi arasında əməkdaşlıq müqaviləsi imzalanıb. Buna əsasən ATU-nun Sitologiya, embriologiya və histologiya kafedrası və ETM-in Elektron mikroskopiya şöbəsi ilə adıçəkilən mərkəzin Beynin nano və arxitektonikası laboratoriyası birgə elmi işlər yerinə yetirib. Müqavilə müddətində yerinə yetirilən elmi tədqiqatların mühüm nəticələri əsasında 13 elmi əsər (6 məqalə, 7 tezis), o cümlədən 5 məqalə Web of Science indeksləmə bazalarına daxil olan jurnallarda dərc edilib. Səfər çərçivəsində professor Eldar Qasımov və Fuad Rzayev ATU ilə Biotibb Mərkəzi arasında əməkdaşlıq müqaviləsinin müddətinin uzadılmasına dair müzakirələr aparıb və razılıq əldə ediblər.

Qeyd olunanlardan əlavə, əməkdaşlarımız Gürcüstanda New Vision Universitetinin nəzdindəki Carl Zeiss şirkətinin Elm və Təhsil Mərkəzində olaraq, onun rəhbəri, professor Pavle Tchelidze ilə birgə elmi işlərin aparılması üçün istiqamətlər müəyyənləşdirib və yol xəritəsi hazırlayıblar.

# Qarabağın dərman bitkiləri yaralarımıza məlhəm olacaq

## Professor Musa Qəniyev deyir ki, bölgədəki 800-dən artıq nadir bitki növünün 250-dən çoxu yox olmaq üzrədir

**"Dünyada mövcud olan 7 iqlim qurşağından 2-sinə və 8 iqlim tipinə malik olan vətənimiz, yeraltı sərvətləri kimi, yerüstü sərvətlərilə də dünyanın ən zəngin ölkələrindən biridir. Təbiətin bizə bəxş etdiyi belə nemətlərdən biri ölkəmizin çoxçeşidli dərman bitki florasına malik olmasıdır".**

Bunları "Təbib" qəzetinə açıqlamasında ATU-nun Farmakologiya kafedrasının müdiri, professor Musa Qəniyev söyləyib.

Professor bildirib ki, dərman bitkiləri 1545 növlə təmsil olunur ki, bu da Azərbaycan florasına daxil olan ümumi bitki növlərinin 34,3%-ni təşkil edir. Bunların 135-i ofisinal dərman bitkiləridir: "Bu bitkilərdən hələ çox qədim zamanlardan müxtəlif xəstəlik və patoloji proseslər zamanı xalq təbabətində geniş istifadə olunur. Azərbaycanın zəngin dərman bitki xammalı hələ qədim dövrlərdə digər ölkə və xalqların maraq dairəsində olmuş və bu nemətdən bacardıqları qədər faydalanmağa çalışmışlar. Məsələn, məşhur tarixçi Strabonun verdiyi məlumata görə, Albaniya dövlətinin mövcud olduğu dövrlərdə (I-VII əsrlər) Roma imperiyası ilə Albaniya arasında Dioskiridə (indiki Suxumi şəhəri) bağlanan müqaviləyə əsasən, Albaniya ərazisində (xüsusən, Qarabağ zonası) yığılan bitkilərdən hazırlanan dərmanlar kiçik şüşə qablara doldurularaq öyrənilmək və istifadə olunmaq üçün Roma imperiyasına göndərilirdi".

Professor M.Qəniyev deyib ki, XII-XVII əsrə aid olan əlyazmalarda göstərilir ki, Qarabağ əhalisi bu bölgədə bitən 700 adda bitkidən müalicə məqsədilə istifadə edib: "30 ildə erməni əsarətində olan bu müqəddəs bölgəmizin bütün təbii sərvətləri, o cümlədən dərman bitki florası talan edilib. Erməni işğalına qədər Qarabağda 600-dən artıq dərman bitki növü yetişirdi. Bu bitkilərin 163 növündə sidikqovucu, 157-sində antibakterial, 138-ində ümumi müalicəvi, 81-ində büzüşdürücü, 19-unda virusəleyhinə təsir xüsusiyyəti vardı və müvafiq məqsədlərlə istifadə olunurdu. Bu bitki növlərinin 1/10 hissəsi isə farmakopeyaya daxil edilmiş ofisinal dərman bitkisi idi. Bunların da 32 növü Azərbaycanda "Qırmızı kitaba" daxil edilmiş və endemik olaraq Qafqaz florasına aid edilən dərman bitkiləri idi.

Bu bitkilərin böyük əksəriyyəti erməni barbarlığının nəticəsi olaraq, tamamilə yox olmaq təhlükəsi altındaydı. 44 günlük Vətən müharibəsindəki tarixi qələbəmiz həm də Qarabağın yeraltı və yerüstü sərvətlərinin, o cümlədən dərman bitki florası daxil olmaqla, bütün təbii müalicə vasitələrinin yenidən xalqımıza qaytarılması idi. Ona görə də hazırda əsas vəzifələrdən biri işğaldan azad olunan torpaqlarda bu bitki florasının bərpasıdır. Xüsusi maraq doğuran və praktik əhəmiyyət kəsb edən cəhət odur ki, Qafqaz florasına aid edilən dərman bitkilərinin bir çox növü yalnız Qarabağ zonası üçün endemikdir. Yəni onlar Qarabağdan başqa dünyanın heç bir yerində təbii şəkildə yetişmir".





Sözünə davam edən mütəxəssis vurğulayıb ki, 30 illik işğal səbəbindən Qarabağın hazırki florası haqqında tam məlumata malik deyilik: "Biz bu məlumatı yalnız Qarabağ ərazisi minalardan tam təmizləndikdən sonra aparılacaq monitorinqlər nəticəsində əldə edəcəyik. Əlimizdə olan və tarixi keçən əsrin 80-ci illərinin ikinci yarısına təsadüf edən son rəsmi məlumata görə, Qarabağ regionunda 800-dən artıq nadir bitki növü var idi. Hazırda onların 250-dən çoxu yox olmaq üzrədir. Bunlardan Araz palıdı, qanadlı fındıq, şərq çinarı, adi nar, meşə üzümləri, şimşir, Eldar şamı, Şuşa gülü, söyüd armudu, Qarabağ dağ laləsi və başqalarını göstərmək olar. Onların xeyli hissəsində gələcəkdə tibbi praktikada istifadəyə əsas ola biləcək, lakin ciddi tədqiqatların aparılmasına ehtiyacı olan bioloji aktiv birləşmələr var. Məsələn, Qarabağ dağ laləsinin soğanağından kardiotonik və sedativ təsirli yüksək farmakoloji fəallığa malik alkaloidlər alınıb".

Professor bütün bunlardan çıxış edərək bildirir ki, Qarabağa Böyük qayıdış zamanı bitki florasının bərpası və hərtərəfli öyrənilməsi çox vacibdir. Bunun üçün Qarabağda gələcəkdə elmi-tədqiqat institutlarına çevriləcək xüsusi eksperimental laboratoriyaların yaradılması və aparılacaq eksperimental və klinik tədqiqatlara farmakoloji nəzarətin təmin olunması əsas şərtlərdir. Məsələnin xüsusi əhəmiyyəti həm də ondan ibarətdir ki, gələcəkdə istehsalçı ölkəsi Azərbaycan olan bitki tərkibli yeni dərman preparatlarının alınması, ölkəmizin müvafiq dərman preparatları idxalından asılılığının azaldılması və hətta xaricə ixracı perspektivi tamamilə realdır.

# Tədris Terapevtik Klinikada rezident məruzə oxuyub



**İyunun 12-də ATU-nun Rezidentura və magistratura şöbəsi Tədris Terapevtik Klinikanın rəhbərliyi ilə birgə rezidentlər üçün növbəti seminar təşkil edib.**

Tədbiri açan Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov iştirakçıları salamlayaraq, ənənəvi qaydada keçirilən seminarların əhəmiyyətindən söhbət açıb. N.Xəlilov bu seminarların tibbin müxtəlif sahələrini əhatə etdiyini və bu dəfə təqdim olunan "Mukopolisaxaridoz IVA - morquio sindromu" mövzusunda məruzənin də maraqla dinləniləcəyini bildirib.

Sonra rezidenturanın III kursunda təhsil alan İlahə Mehrəliyeva bu mövzunu nədən seçməsinə aydınlıq gətirərək, çıxışına slaydlarla davam edib. O, bildirib ki, mukopolisaxaridoz lizosomal qlukozidaz və ya sulfataz defisiti olub, anadangəlmə metabolizm pozğunluğudur. Lizosomlarda mukopolisaxaridlərin və ya qlikozaminoqlikanların toplanmasına gətirib çıxarır.

Diqqəti morquio sindromuna yönəldən İ.Mehrəliyeva bildirib ki, bu, müəyyən yaş civarında ortaya çıxan qısa boy, qısa boyun, qısa gövdəli cücəlik (digər tiplərdən fərqi) və ağır skelet anomaliyaları ilə xarakterizə edilən bir xəstəlikdir: "Bir neçə il bundan öncə klinikanın təcrübəli həkimi, assistent Adilə xanımın müayinə etdiyi 4 yaşlı (hazırda 7 yaşı var) Şükür Dadaşov adlı xəstənin ümumi vəziyyəti indi də ağırdır. Səbəb mukopolisaxaridoz və skeletində olan dərin deformasiyalardır. Yerişi qeyri-düzgündür, normal gəzə bilmir. Bir neçə addımdan sonra yorulur və oturur, ümumi zəiflikdən şikayət edir. Obyektiv müayinədə boyu 86 sm, çəkisi 14 kq-dır. Xarici görkəmində bir çox deformasiyalar var. Döş qəfəsi dərin deformasiyalı, öndən kəskin surətdə irəli gəlib. Arxadan skolioz, kifoz müşahidə olunur. Aşağı ətraflar dərin deformasiyalıdır, ağır yastı və əyripəncəlilik mövcuddur. Qaraciyər və dalaq qabırğa kənarındadır".

Seminarda iştirak edən klinikanın endokrinoloq-genetik-pediatrı, assistent Adilə Çernik-Bülənd mövzuya aydınlıq gətirərək bildirib ki, belə hallara ən çox qohum evliliklərində rast gəlinir və genetik xəstəliklərin meydana gəlməsinin təzahürüdür: "Qohum nikahlarda ilk uşağın sağlam doğulması ikinci uşağın da sağlam olacağı anlamına gəlmir. Belə evliliklərdə problemli uşaqların doğulma riski digərlərinə nisbətən ikiqat çoxdur. Hər il dünyada 8 milyona yaxın (6%) uşaq fiziki və əqli pozğunluqlarla doğulur, minlərlə uşaq erkən yaşda tələf olur. Dünyada doğulan uşaqların ən azı 8,4% -i qohum nikahlardandır. Bu daha çox Cənubi Hindistan və Qərbi Ağdəniz bölgələrində yayılıb. Qohum evliliklər olan populyasiyada xəstə uşağın doğulma riski digər populyasiyalara nisbətən ikiqat artaraq 8-9% təşkil edir. Ərəb ölkələri, Cənubi Hindistan, Misir və Türkiyə kimi ölkələrdə bu faiz daha da yüksəkdir. Türkiyədə qohum evliliklərinin 29% olduğu aşkarlanıb. Amma məsələn, Almaniyada əhalinin genetik xəstəliklər haqqında daha çox məlumatlı olması səbəbindən qohum nikahları 0,3 %-ə qədər azalıb".

Sonda mövzuya dair çoxsaylı suallar məruzəçi tərəfindən cavablandırılıb.

Seminarda Tədris Terapevtik Klinikanın direktoru Fərid Eyvazov, baş həkim Fəridə Hacıyeva, ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri, klinikanın Uşaq sağlamlığı və xəstəlikləri şöbəsinin müdiri, dosent Qoşqar İsmayılov və həkim-rezidentlər iştirak edirdilər.

# Əməkdaşımızın uğuru

**Mayın 29-da Abşeron Olimpiya İdman Kompleksində Gənclər və İdman Nazirliyinin və Milli İdman Növləri Assosiasiyasının təşkilatçılığı ilə yeniyetmə, gənclər və böyüklər arasında Mas-resling idman növü üzrə ölkə birinciliyi və çempionat keçirilib.**




Yarışın açılışında Dövlət Himni səsləndirildikdən sonra Gənclər və İdman Nazirliyinin sektor müdiri Aydın Məmmədov, Milli İdman Növləri Assosiasiyasının prezidenti Kazım Qurbanov yarışın mahiyyəti haqqında məlumat veriblər və iştirakçılara uğurlar arzulayıblar.

Sonda qalib idmançılara diplom və medallar təqdim edilib. Qaliblər arasında ATU-nun Tədris Cərrahiyyə Klinikasının əməkdaşı, idman ustası Mahir Əliyev də var. O, "Zenit" İdman Cəmiyyətinin tərkibində yarışa qatılıb və 125 kq çəki dərəcəsində III yerə layiq görülüb. Gənclər və İdman Nazirliyinin diplom və medalı ilə təltif olunan əməkdaşımızı təbrik edir, ona yeni-yeni uğurlar arzulayırıq.

# Məhkəmə təbabəti həm tibbə, həm də qanunlara xidmət edir

## Professor Mənsur Bünyatov: Məhkəmə-tibb ekspertləri kimi, istintaq prosesində bizdən çox şey asılıdır



**Məhkəmə təbabəti kafedrası Azərbaycan Tibb Universitetinin ilk təşkil olunan kafedralarından biridir. Əsası 1920-ci ildə qoyulan bu kafedranın məhkəmə təbabəti sahəsində gənc kadrların hazırlanmasında rolu danılmazdır.**

Bəs məhkəmə-tibbi ekspertizalarının təşkili və fəaliyyəti, canlı insan və cəsəd üzərində müayinələrin aparılması, yarılma metodları, müxtəlif travmaların diaqnostikası və s. məsələlər tələbələrə elmi və praktiki cəhətdən necə öyrədilir? Bu sahə ilə bağlı dərs vəsaitləri kifayət edirmi?

Bu kimi suallarımıza 2004-cü ildən kafedraya rəhbərlik edən tibb elmləri doktoru, professor Mənsur Bünyatov cavab verib: "Məhkəmə təbabəti sahəsinin təkmilləşməsi və inkişafı bu sahədə elmi-tədqiqat işlərinin aparılmasından, yazılmış dərs vəsaitlərinin, ədəbiyyatların, metodik nəşrlərin keyfiyyətindən, onların yenilənməsindən çox asılıdır. Məhkəmə təbabəti fənni bir sıra ali məktəblərdə tədris olunur. İndiyədək bu sahəyə aid ana dilimizdə bir neçə ədəbiyyat nəşr olunub. İlk belə dərslik 1972-ci ildə mərhum professor Şamil Səlimxanovun müəllifliyi ilə işıq üzü görüb. 1992-ci ildə bu dərslik yenidən nəşr olunub. Keçən əsrin 90-cı illəri və bu əsrin əvvəllərində professor Şakir Musayev və mərhum professor Rafiq Yusiflinin müəllifliyi ilə dərsliklər çap edilib. 2010-cu ildə isə mənim müəllifliyim ilə "Məhkəmə təbabəti" dərsliyi işıq üzü gördü. 2022-ci ildə həmin kitab yeniləndi. Bütün kafedra əməkdaşlarının bu kitabın nəşrində böyük rolu oldu.

Qeyd edim ki, yeni dərslik oxucuya məhkəmə təbabəti fənninin müxtəlif mövzuları və sualları ilə fərqli baxış və yanaşmayla tanış olmaq imkanları verir. Bu isə fənni daha dərindən dərk etməyə və öyrənməyə şərait yaradır".

Kafedra müdiri hazırda məhkəmə təbabətində yeniliklərin əsasən laborator müayinələrə aid olduğunu bildirib. Bunlara qan, DNT, sperma müayinəsinin aid olduğunu qeyd edib. Amma meyit müayinəsinin ümumi standartlara uyğun aparıldığını dilə gətirib: "Bəzən patoloji anatomiya ilə məhkəmə təbabətini səhv salırlar. Amma belə deyil. Patoloji anatomiya elmi və təcrübi təbabətə qulluq edir. Məhkəmə təbabəti təkcə təbabətə xidmət etmir, eyni zamanda hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə işləyir.

Ayrıca götürəndə, məhkəmə təbabəti nəzəriyyədən və onun təcrübədə tətbiq olunmasından bəhs edən bir elmdir, eyni zamanda çoxşaxəlidir. Belə ki, bu elm bir çox tibbi və qeyri-tibbi elmlərlə sıx əlaqəlidir. Məhkəmə-tibb ekspertləri kimi bizdən çox şey asılıdır. Əsas odur ki, ekspertiza dəqiq aparılmalı, rəy elmi əsaslandırılmış və ədalətli olmalıdır. Kafedramızda savadlı və təcrübəli müəllimlər dərs deyir. Elə özüm iki ali məktəb bitirmişəm. Həm Azərbaycan Tibb Universitetini, həm də Bakı Dövlət Universitetinin Hüquq fakültəsini. Məhkəmə-tibbi ekspertiza üzrə internatura keçmişəm, ixtisasım məhkəmə-tibb eksperti və patoloq-anatomdur. Yuxarıda sadaladığım ixtisaslar bir-biri ilə sıx əlaqədə olduğundan, mənə bir ekspert kimi işimdə çox kömək edir.

Məhkəmə-tibb ekspertləri hadisə yerində müstəntiqə yaxından köməklik göstərirlər ki, bu da istintaqın gedişində olduqca əhəmiyyətli rol oynayır. Hər kəs "Məhkəmə təbabəti" kitabını oxuya bilər, amma dəqiq rəy yazanlar az olar. Ona görə də kafedramıza rəhbərlik edənlər yaxşı mütəxəssislərin yetişməsi üçün əllərindən gələni ediblər. Fəaliyyət göstərdiyimiz bina kafedramızın sabiq müdiri, mərhum professor Rafiq Yusiflinin təşəbbüsü ilə Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin yaxınlığında inşa olunub. Bu isə tələbələrin daim idarə ilə əlaqə saxlayıb orada aparılan ekspertizalarda iştirakını asanlaşdırır".

Professor M.Bünyatov rəhbərlik etdiyi kafedrada tədris prosesindən də danışıb. Bildirib ki, burada peşəkar, təcrübəli alimlər tələbələrə mühazirə oxuyur: "Dosentlərimizdən Aida Xanməmmədova, Zabit Məmmədov, Ülfət Mikayılov, Eldar Ələkbərov təcrübəli kadrlardır, öz bilik və bacarıqlarını tələbələrdən əsirgəmirlər. Kafedra müdirinin tədris işləri üzrə müavini Zabit Məmmədovun bu fənnin tədris keyfiyyətinin yüksəldilməsində böyük əməyi olub. Onu da deyim ki, müəllimlərin hamısı yaşda məndən böyükdür, özüm də onlardan çox şey öyrənmişəm. Respublikanın qocaman və təcrübəli məhkəmə-tibb ekspertlərindən Oleq Mirzəyev müəllimim olub. Həmişə onunla məsləhətləşmişəm".

Kafedra müdiri tələbə və rezidentlərin necə təcrübə keçmələrindən də söhbət açıb: "Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Nəsimi rayon şöbəsi ilə yaxın məsafədəyik. Şöbənin müdiri, kafedramızın assistenti Samir Cəfərov ilə sıx əlaqədəyik. Maraqlı hadisə olan kimi, məlumat verir, qrupu meyitxanaya göndərirəm. Məhkəmə-tibbi ekspertizasına aid olan meyitlərin müayinəsində tələbələrimiz yaxından iştirak edə bilirlər. Canlı şəxslərlə ünsiyyət qurmaq isə bir az çətindir. Çünki heç də hər insan xəsarət aldığının aşkarlanmasını istəmir. Amma tələbə və rezidentlərimizin bu təcrübəni də əldə etmələrinə şərait yaradırıq".

Mənsur müəllimin sözlərinə görə, son vaxtlar qızlar arasında bu sahəyə maraq xeyli artıb və bu olduqca müsbət haldır: "Onlara hər cür şərait yaradırıq ki, öyrənsinlər və yaxşı bir ekspert kimi yetişsinlər. Hazırda kafedramızda bir xanım müdafiəyə hazırlaşır, onu kurs keçməsi üçün Türkiyəyə göndərməyi planlaşdırırıq. Kafedramızın əməkdaşları da ardıcıl olaraq xaricdə keçirilən konfranslarda iştirak edir, məruzələrlə çıxışlar edirlər".

**Qabil ABDULLAYEV**

# Pandemiya insanların psixikasına çox mənfi təsir etdi

## Professor Zəfər Əliyev: Bəzən pasiyentlərin üz tutduğu astroloq, ekstrasens, baxıcıların çoxu psixi problemli insanlardır



**Müasir təbabətdə daim diqqət çəkən sahələrdən biri də psixiatriyadır. Son dövrlərdə stres faktorlarının və informasiya yükünün artması, obyektiv sosial mühitin yaratdığı problemlər bu sahənin aktuallığını bir qədər də önə çıxarır. Məhz bu nöqteyi-nəzərdən, insanın psixi sağlamlığının zəruriliyinə dair mütəxəssis sözü hər zaman maraqlıdır.**

Suallarımızı ATU-nun Psixiatriya kafedrasının professoru Zəfər Əliyev cavablandırır.

**- Bu gün hansı psixi xəstəliklər və nevropatoloji sindromlar daha aktualdır?**

- Son zamanlar psixiatriyaya və nevrologiya sahəsinə aid olan demensiya halı getdikcə aktuallaşır. Demensiya – baş beynin xəstəliyi nəticəsində psixi fəaliyyətin pozulması deməkdir. Bu vəziyyətdə daha çox yaddaş, təfəkkür, qavrama, nitq, eləcə də təhlil etmə qabiliyyətinin pozulması müşahidə olunur. Daha çox rast gələnən demensiya növləri Altsheymer xəstəliyi (65%-ə qədər) və damar demensiyasıdır (30%-ə qədər).

Demensiyalı xəstələrin ümumi sayı yaş faktoru ilə əlaqədardır. Yəni yaş artdıqca say çoxalır. Belə bir xüsusiyyəti də var ki, 65 yaşdan sonra hər 5 ildən bir 2 dəfə artır.

Narahatedici tendensiya ondan ibarətdir ki, demensiya "cavanlaşır". Təbii ki, burada risk amillərini qeyd etmək lazımdır. Bunlara ahıl yaş, irsiyyət, alkoqol, tütünçəkmə, narkotiklər, piylənmə, hipertoniya, qanda xolesterinin artması, kəllə-beyin travması, vitamin B12 və fol turşusu duzlarının çatışmazlığı aiddir. Eyni zamanda ekoloji mühit və zərərli sahədə çalışmaq da risk amillərinə daxildir.

Bu demensiyalar nə qədər erkən aşkar olunarsa, fəsadları da bir o qədər yumşaq formada üzə çıxar və ya daha gec dövrdə özünü büruzə verər. Təəssüf ki, bu prosesi dayandırmaq mümkün deyil. Nəticədə bu xəstəliklə bağlı tibbi, sosial, hüquqi və maliyyə problemləri, həmçinin pasiyentin yaxınlarında depressiv və təşviş pozuntularının yaranma ehtimalı artır. Bu halların vaxtında aşkar edilməsi üçün yaşlı insanların "Chek up" prosedurundan keçməsi məsləhətdir. Xüsusilə, baş-beynin maqnit-rezonans tomoqrafiyası vacibdir. Bu yaşda şəxslərdə yaddaşın mühüm dərəcədə zəifləməsi, depressiyanın yaranması və xasiyyətin dəyişməsi ciddi siqnal ola bilər.

**- COVID-19 pandemiyası insanların psixikasına necə təsir göstərdi və indi də göstərirmi? Bu baxımdan, son vəziyyəti necə qiymətləndirmək olar?**

- Təbii ki, COVID-19 pandemiyası insanların psixikasına çox mənfi təsir göstərdi. O zaman depressiv, təşviş və obsessiv-kompulsiv pozuntuların sayı təxminən 30% artmışdı. Vəziyyət getdikcə tənzimlənir. Hal-hazırda postkovid sindromla müraciət edən insanların sayı azalır. Həmin sindromlardan yaddaşın zəifləməsi, tez yorulma, baş ağrıları və diqqətin pozulmasını göstərə bilərik.

**- Psixi pozuntuların təhlükəli mərhələyə keçməsinin qarşısını almaq üçün hansı qabaqlayıcı tədbirlər görülməlidir? İnsanlara nələri tövsiyə edərdiniz?**

- Psixi pozuntuların təhlükəli mərhələyə keçməsinin qarşısını almaq üçün tez bir zamanda psixiatra müraciət etmək lazımdır. Ən azı, klinik psixoloqa müraciət etmək məsləhətdir. Bəzən xəstəliyin başlanğıc mərhələsi yüksək sürətlə inkişaf edir. Pasiyent və pasiyentin yaxınları yanlış addımlar atırlar – müxtəlif ocaqlara, pirlərə, parapsixoloqlara, astroloqlara, ekstrasenslərə, baxıcılara müraciət edirlər. Halbuki, onların çoxu psixi problemi olan insanlardır və ya dələduzluqla məşğul olurlar. Nəticədə psixi pozuntunun proqnozu pisləşir. Hətta bəzən vəziyyət o dərəcəyə çatır ki, pasiyentlər onlara "dəli" deyiləcəyindən və "asılılıq" yaradan dərmanların yazılmasından ehtiyat edirlər.

**A.KAMRANOĞLU**

**Azərbaycan Tibb Universitetinin Əczaçılıq toksikologiyası və kimya kafedrasının müdiri, professor Eldar Qarayev, həmin kafedranın baş laborantı İlkin Nəsirli və Əczaçılıq kimyası kafedrasının mərhum professoru İsrafil Mövsümov tərəfindən hazırlanmış "Способ выделения флавоноидных агликонов из водной среды" (Flavonoid aqlikonlarının sulu mühitdən ayrılması üsulu) adlı ixtiraya Avrasiya Patent Təşkilatı tərəfindən beynəlxalq patent verilib (№ 043560, 31.05.2023).**

# Əməkdaşlarımızın ixtirasına beynəlxalq patent verilib


ЕВРАЗИЙСКАЯ ПАТЕНТНАЯ ОРГАНИЗАЦИЯ
ЕВРАЗИЙСКОЕ ПАТЕНТНОЕ ВЕДОМСТВО

ЕВРАЗИЙСКИЙ ПАТЕНТ
НА ИЗОБРЕТЕНИЕ
№ 043560

Название изобретения:
«СПОСОБ ВЫДЕЛЕНИЯ ФЛАВОНОИДНЫХ АГЛИКОНОВ ИЗ ВОДНОЙ СРЕДЫ»

Патентовладельцы:
ГАРАЕВ ЭЛЬДАР АБДУЛЛА ОГЛЫ;
НАСИРЛИ ИЛЬКИН УЗЕИР ОГЛЫ (AZ)

Изобретатели:
Гараев Эльдар Абдулла оглы, Мовсумов Исрафиль Солтан оглы, Насирли Илькин Узеир оглы (AZ)

Заявка №: 202100294
Дата подачи заявки: 31 августа 2021 г.
Дата выдачи патента: 31 мая 2023 г.

Настоящим удостоверяется, что евразийский патент выдан на изобретение с формулой, опубликованной в Бюллетене Евразийского патентного ведомства «Изобретения (евразийские заявки и патенты)» № 5 / 2023 год.

При уплате установленных годовых пошлин патент действует на территории государств-участников Евразийской патентной конвенции – Азербайджанской Республики, Кыргызской Республики, Республики Армения, Республики Беларусь, Республики Казахстан, Республики Таджикистан, Российской Федерации, Туркменистана.

ИВЛИЕВ Григорий Петрович
Президент Евразийского патентного ведомства

İxtiranın mahiyyəti ondan ibarətdir ki, flavonoid aqlikonlarının (flavonol və flavononların) sulu mühitdən təcrid edilməsi üçün istifadə olunan yüksək toksikliyə malik, partlayıcılıq baxımından son dərəcə oddan təhlükəli dietil efirini tamamilə əvəz edə bilən, toksiklik və təhlükəsizliyi ondan dəfələrlə az olan etilasetat–heksandan ibarət ekstragentin optimal tərkibi işlənib hazırlanıb.

# Öyrən və tətbiq et

## ATU-nun rezidentləri müstəqil fəaliyyətə hərtərəfli hazırlanır

**Azərbaycan Tibb Universitetində rezidentura təhsili alanlar tibb ixtisasları üzrə baza ali təhsili əsasında həkim-mütəxəssis kimi hazırlanırlar. Onlar seçdikləri sahənin zəruri nəzəri, praktik biliklərini nəzarətində olduqları peşəkar həkimlərdən öyrənir, peşə vərdişlərini, müalicə metodlarını təkmilləşdirir və real həyatda icra edirlər.**

Universitetimizdə öz ixtisasını dərindən mənimsəməyə səy göstərən rezidentlərimiz kifayət qədərdir. Onları mütəmadi olaraq oxucularımızla da tanış edirik.

Belə rezidentlərdən biri **Aygül Hümmətovadır.**



O, Tibb Universitetinə 2006-cı ildə daxil olub və universiteti 2012-ci ildə bitirib. 2019-cu ildə Ümumi cərrahiyyə ixtisası üzrə rezidenturaya daxil olan Aygül hazırda 4-cü kursda oxuyur: "Bu illər ərzində elmi rəhbərim professor Rüstəm Məmmədov olub. Onun rəhbərliyi ilə bir çox əməliyyatların sərbəst icrasına yiyələnə bilmişəm. Hörmətli professor bir müəllim kimi cərrahiyyə sahəsinin bütün incəliklərini öyrənməyim üçün əlindən gələni edib. Mən artıq appendektomiya, uşaqlığın artımlarla birlikdə ekstripasiyası, laparoskopik və açıq üsulla xolesistektomiya, yumurtalıq kistalarının açıq və laparoskopik üsulla ləğvi, ön və arxa kolporafiya, hemoroidektomiya, anal çatın ləğvi, aşağı ətrafın genişlənmiş səthi venalarının endovenoz lazer ablasiyası, lipoma, dermoid kist, ateroma və digər əməliyyatları sərbəst şəkildə icra edirəm. Fəaliyyətim təkcə əməliyyatlarda iştirak etməklə məhdudlaşmır. Həm də xəstələrin əməliyyatdan sonrakı dövrdə konservativ müalicələrini təyin edir, sarğıları icra edirəm. 4 illik rezidentura dönəmində kuratorum, professor R.Məmmədovun rəhbərliyi ilə 10-dan çox tezis və 1 məqalənin yazılmasında yaxından iştirak etmişəm".

A.Hümmətova Vətən müharibəsi vaxtı qazilərimizin sağlamlığı keşiyində dayanıb, COVİD-19 zamanı Təcili Tibbi Yardımda fəaliyyət göstərib. O, 15-ə yaxın beynəlxalq və yerli konfransa qatılaraq sertifikatlar əldə edib.

**Əmrah Əliyev** Tədris Cərrahiyyə Klinikasının Urologiya şöbəsinin 4-cü kurs rezidentidir. Bir çox uroloji elmi konfrans və seminarlarda iştirak edib və diplomlarla təltif olunub: "Şöbəmizdə bütün növ uroloji - açıq, endoskopik, laparoskopik əməliyyatlar icra olunur. Mən də sərbəst şəkildə əksər uroloji əməliyyatları icra edirəm. Müstəqil həkim kimi fəaliyyətimizdə əvəzsiz rolu olan müəllim və həkimlərə, o cümlədən Vasif İsmayıl, Timurçin



Məhərrəmbəyli, Fikrət Əhmədova təşəkkürümü bildirirəm.

Tələbə Elmi Cəmiyyətinin tədbirlərində də fəal iştirak edirəm. Bu günlərdə keçirilən konfransda "Böyrək daşlarında perkutan nefrolitotomiya əməliyyatının üstünlükləri" mövzusunda çıxış etdim".

**Həkim-rezident Nərmin Məhərrəmli** 2013-cü



ildə ATU-nun Müalicə-profilaktika fakültəsinə daxil olub. 2019-cu ildə universiteti fərqlənmə diplomu ilə bitirərək, "Şüa diaqnostikası" ixtisası üzrə rezidenturaya qəbul olunub: "Rezidentura dövründə şöbəmizin həkimləri, xüsusilə professor Məlahət Sultanova və dosent Rasim Bayramovun rəhbərliyi ilə bütün radioloji müayinələrin aparılması və görüntülərin dəyərləndirilməsində iştirak etmişəm. Hazırda əksər müayinələrin aparılması və dəyərləndirməni sərbəst şəkildə icra edirəm. Buna görə hər zaman incəliklərə qədər bizi öyrədən, şərait yaradan və dəstək olan rəhbərlərimə minnətdaram. Ötən il elmi rəhbərim R.Bayramov ilə birgə "American Journal of Medical Case Reports" jurnalında "Əkiz bacılarda L-2-Hidroksiqlutarik Asiduriya" adlı məqaləmiz dərc olunub. Həmçinin Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunan rezidentlərin 10-cu elmi-təcrübi konfransında eyniadlı mövzu ilə çıxış etmişəm".

N.Məhərrəmli hazırda Üz-çənə cərrahiyyəsi kafedrasının dosenti Nigar Sultanova ilə birgə "Azərbaycanlılarda üzdə yumşaq toxuma qalınlığı" mövzusunda elmi iş üzərində işləyir. Tədris Cərrahiyyə Klinikasında 1 il 3 ay ərzində 300 nəfərin kompüter tomoqrafiya filmləri üzərində 11-i tək, 13-ü cüt olmaqla 24 nöqtədə ölçmələr aparıblar. Bu elmi proses dünyada bir çox millətlər üzərində həyata keçirilib. Hazırda elmi iş statistika mərhələsindədir və bununla bağlı məqalənin tezliklə bir sıra nüfuzlu Amerika və Avropa tibb jurnallarında dərc olunması planlaşdırılır.

# Amaliya Əyyubovanın xatirəsi onu tanıyanların qəlbində yaşayacaq

**Tibb ictimaiyyətinə ağır itki üz verib. Görkəmli alim, həkim-pediatr, Azərbaycan Tibb Universitetinin II Uşaq xəstəlikləri kafedrasının professoru, əməkdar elm xadimi Amaliya Abdulla qızı Əyyubova ömrünün 89-cu ilində vəfat edib.**



A.Əyyubova 26 mart 1934-cü ildə Ağstafa rayonunun Dağ Kəsəmən kəndində anadan olub. 1951-1957-ci illərdə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki ATU) Pediatriya fakültəsində təhsil alıb. Təhsil illərində Tələbə Elmi Cəmiyyətinin fəal üzvü olub və universitetin ictimai həyatında aktiv iştirakı ilə fərqlənib. O, universiteti fərqlənmə diplomu ilə bitirərək 1963-cü ildən Hospital pediatriya kafedrasının assistenti, sonralar Uşaq xəstəlikləri kafedrasının dosenti və professoru vəzifələrində çalışıb. 1989-2017 illərdə II Uşaq xəstəlikləri kafedrasının müdiri olub. Tədqiqatları, əsasən allergik xəstəliklərin klinik variantlarının öyrənilməsinə həsr edilib.

Professor A.Əyyubova 400-dən çox elmi əsərin, o cümlədən 5 dərslik, dərs vəsaiti və monoqrafiyanın müəllifidir. Azərbaycanda ilk dəfə allergik xəstəliklərin yayılmasını, struktur və klinik formalarını öyrənən tibb alimlərindəndir. Tibdə böyük xidmətlərinə görə BMT-nin Təltiflər Komissiyası tərəfindən I dərəcəli "Hippokrat" ordeninə layiq görülüb.

ATU-nun Tələbə Elmi Cəmiyyətinə uzun illər rəhbərlik edən A.Əyyubova, eyni zamanda Azərbaycan Allerqoloq, İmmunoloq və İmmunoreabilitoloqlar Elmi Cəmiyyətinin prezidenti, eyniadlı beynəlxalq və MDB cəmiyyətlərinin, Beynəlxalq "İnterastma" təşkilatı İdarə Heyətinin, Pediatriya Cəmiyyətinin, "Azərbaycan tibb jurnalı"nın redaksiya heyətinin üzvü idi.

Professor A.Əyyubovanın çoxşaxəli elmi və tibbi xidmətləri dövlətimiz tərəfindən də həmişə yüksək qiymətləndirilib.

Ömrünü peşəkar tibb kadrlarının hazırlanmasına və gələcəyimiz olan uşaqların sağlamlığına həsr edən A.Əyyubovanın xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Tibb Universitetinin rektorluğu və universitetin kollektivi**

# Ürək və insult xəstəliklərinin əsas səbəbi: hipertoniya

**Arterial hipertoniya arterial təzyiqin 140/90 millimetr civə sütununda yuxarı qalxması halıdır. Birinci dərəcəli arterial hipertoniya ayrıca bir xəstəlik sayılır. Onun əsas və aparıcı əlaməti arterial təzyiqin yüksəlməsidir. İkinci dərəcəli arterial hipertoniya simptomatik olur və bu zaman təzyiqin yüksəlməsi başqa xəstəliklər nəticəsində əmələ gəlir.**



Bir çox ölkələrdə 60 yaşından yuxarı olan əhalinin 50 faizindən çoxu yüksək arterial təzyiqə malikdir. Hipertoniyadan əziyyət çəkənlərin təxminən 45 faizi arterial təzyiqin yüksək olduğundan xəbərsizdir.

Arterial təzyiq gündə iki dəfə - səhər və axşam fiziki iş, qida, çay və ya qəhvə qəbulundan ən azı 30 dəqiqə sonra ölçülür. Rahat vəziyyətdə oturmaq, əli stolun üstündə ürəyin səviyyəsində tutmaq, təzyiqölçən aparatın manjetini dirsəkdən 2 santimetr yuxarıya sarıyıb onu hava ilə tam doldurandan sonra ölçmək lazımdır. Arterial təzyiqi 1-2 dəqiqə fasilə ilə iki-üç dəfə ölçmək məsləhətdir. Bir qolda aparılan bu cür ölçmədən sonra arterial təzyiqin dəqiq səviyyəsini müəyyən etmək mümkündür.

Duzlu, yağlı qidalar və alkoqoldan istifadə edən, xroniki stres yaşayan, siqaret çəkən, fiziki aktivliyi az olanlarda qan təzyiqi tez-tez yüksəlir. Hipertoniya dünyada ürək və insult xəstəliklərinin ən başlıca səbəbi sayılır. Nəzarət edilməyən hipertoniya infarkta, ürəyin genişlənməsinə və nəticədə ürək çatışmazlığına səbəb olur. Hipertoniya, həmçinin böyrək çatışmazlığı, beyin qan dövranının pozulması və digər sağlamlıq problemləri ilə nəticələnə bilər.

Yüksək qan təzyiqi olanlar normal qan təzyiqi olanlara nisbətən qida ilə üç dəfə çox natrium-xlorid istehlak edirlər. Çəkilən siqaret qan təzyiqinin 10-30 millimetr civə sütunu artmasına səbəb ola bilər. Bədən çəkisinin artması ilə də təzyiq artır.

### Etibarsız sayılır

Asliranifam Amirmohammadın (qrup 422A6a) tələbə bileti, Gasanova Giulnar Mushfiq qızının (tələbə kontingentində qalan məzun) müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

### Allah rəhmət eləsin!

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının kollektivi Normal fiziologiya kafedrasının professoru Əhməd Kazımova bacısı

**Zərəfşan xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

ETM-in kollektivi iş yoldaşları Bəsti Əbilovaya anası

**Tükəzban Əbilovanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının kollektivi Xarici dillər kafedrasının müdiri, professor Zemfira Məmmədovaya qardaşı

**Əliheydər Məmmədovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının kollektivi kafedranın assistenti Sevda Qarayevaya xalası qızı

**Kəmalə xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Tibbi mikrobiologiya və immunologiya kafedrasının əməkdaşları Allerqologiya və immunologiya kafedrasının dosenti

**Abdulla Fərəməzovun**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başlağlığı verirlər.

Nevrologiya kafedrasının əməkdaşları kafedranın laborantı Şəlalə Mahmudovaya atası

**Xanoğlan Ağayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başlağlığı verirlər.

---

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları kafedranın dosenti Sədaqət Rüstəmovaya və onun bacısı İlahə xanıma gəlinləri

**Xuraman xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başlağlığı verirlər

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun Nəşriyyat-Poliqrafiya şöbəsində çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0011
Sayı 800